www.iqtisadiyyat.com

№ 50 (993) 14-20 dekabr 2017-ci il

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Qürurla anırıq

## Xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu. Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Regionlarda yeni müəssisələr açılır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonunda səfərdə olmuşdur.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev dövlətimizin başçısına abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat vermişdir.

Qubada regional "ASAN həyat" Kompleksinin tikintisi yüksək səviyyədə həyata keçirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 7-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba "ASAN həyat" Kompleksinin açılışında iştirak ediblər.

Prezidentin hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlətimizin başçısına Quba "ASAN həyat" Kompleksi barədə ətraflı məlumat vermişlər.

Bildirilmişdir ki, bu kompleks Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 12-ci Mərkəzidir. Quba regional "ASAN həyat" Kompleksinin tikintisi yüksək səviyyədə həyata keçirilib. Kompleksin tikintisinə bu ilin əvvəlində başlanılıb. Kompleks 4 mərtəbəli inzibati binadan və 6 ictimai iaşə obyektindən ibarətdir. Burada "ASAN xidmət" Mərkəzi, "ASAN təlim" Mərkəzi, "ABAD" Mərkəzi, "ABAD" Məktəbi yaradılıb.

Dövlətimizin başçısı mərkəzlə tanış olmuşdur. Kompleksin "ASAN xidmət" Mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə, 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcək. Quba "ASAN xidmət" Mərkəzi Quba, Qusar, Xaçmaz və Şabran rayonları ərazisində qeydiyyatda olan, ümumilikdə, 500 minə yaxın vətəndaşa xidmət göstərəcək.

Dövlətimizin başçısı Quba "ASAN xidmət" Mərkəzini işə salmışdır.

Prezident İlham Əliyevə "Ready 2.0" avadanlığı haqqında məlumat verilmişdir. Bu avadanlıq "ASAN xidmət" mərkəzlərində hazır sənədlərin vətəndaşlara avtomatlaşdırılmış qaydada verilməsi üçün hazırlanmış cihazın yeni versiyasıdır. Mərkəzlə tanışlıq zamanı Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni layihələr barədə də məlumat verilmişdir.

"Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu"nun təqdimatı zamanı bildirilmişdir ki, 10 tanınmış beynəlxalq şirkət tərəfindən təsis edilən Konsorsium Azərbaycanın etibarlı və çevik qlobal tərəfdaşı olmaq niyyətini əks etdirir. Konsorsiumun əsas missiyası Azərbaycandan qlobal bazara innovativ və rəqabətədavamlı keyfiyyətli məhsullarla xidmətləri təqdim etməkdir. Konsorsium dəyişən iqtisadiyyat şəraitində dövlətlərin, müəssisələrin, biznes qurumlarının maraqlarına uyğun olaraq, yenilikçi həllərin təmin edilməsi üçün etibarlı qlobal tərəfdaşa çevrilməyi hədəfləyir.

Dövlətimizin başçısına "Tikilməkdə olan çoxmənzilli yaşayış binalarının və həmin tikinti obyektlərinin inşası ilə məşğul olan fiziki və hüquqi şəxslərin Elektron Reyestri" barədə də məlumat verilmişdir. Burada reyestrin funksional imkanları, fəaliyyəti və tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı tikinti şirkətlərində səyyar monitorinqlərin keçirilməsinin nəticələri əks olunub.

Prezident İlham Əliyevə növ-





bəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan digər “ASAN xidmət” mərkəzlərinin layihələri də təqdim olunmuşdur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksin “ABAD” Mərkəzində də olmuşlar.

“ABAD” publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev məlumat vermişdir ki, kompleksdəki “ABAD” Mərkəzinin əsas məqsədi şimal regionunda yeni ailə brendləri yaratmaq, ailə təsərrüfatlarının məhsullarının daxili və xarici bazarda satışını təşkil etmək, özünüməşğulluq proqramının icrasına dəstək göstərməkdir.

Prezident İlham Əliyev Quba “ASAN həyat” Kompleksinin əməkdaşları ilə görüşmüş, çıxış etmişdir. O, demişdir:

- Qubada “ASAN xidmət” Mərkəzinin yaradılması çox gözəl hadisədir. Bu, sayca 12-ci mərkəzdir. Mərkəzlərdən 5-i Bakıda yaradılıb, 7-si də Quba daxil olmaqla, digər bölgələrdə. “ASAN xidmət” artıq beş ildir ki, fəaliyyət göstərir. Beş il ərzində Azərbaycan xalqının rəğbətini qazana bilmişdir. Bu illər ərzində “ASAN xidmət” mərkəzlərinə 18 milyondan çox müraciət daxil olmuşdur və “ASAN xidmət”in fəaliyyətini bəyənmə əmsalı 100 faizə yaxındır. Bu, doğrudan da ictimai xidmətlər sahəsində böyük bir inqilabdır. “ASAN xidmət” Azərbaycan brendidir, Azərbaycanın intellektual məhsuludur. O məhsul ki, bu gün biz onu xaricə ixrac edirik. Bir neçə ölkə “ASAN xidmət”lə maraqlanır.

“ASAN xidmət” beynəlxalq təşkilatlar tərəfindən də çox yüksək qiymətə layiq görülüb. BMT ictimai xidmətlər sahəsində “ASAN xidmət”ə yüksək mükafat vermişdir. Bir neçə mötəbər beynəlxalq təşkilat artıq “ASAN xidmət”lə uğurlu əməkdaşlıq edir.

Bildiyiniz kimi, stasionar mərkəzlərlə yanaşı, 10 avtobus səyyar xidmət göstərir, “ASAN qatar” xidməti artıq fəaliyyətə başlayıbdır. Gələn il üç “ASAN xidmət” Mərkəzinin açılışı nəzərdə tutulur – Mingəçevir, Şəki və İmişli şəhərlərində. Eyni zamanda, gələn il 5 mərkəzin tikintisinə start veriləcəkdir və 2019-cu ildə onların açılışı nəzərdə tutulur. Biz istəyirik ki, 2019-cu ilin sonuna qədər ölkəmizdə 20 “ASAN xidmət” Mərkəzi fəaliyyət göstərsin.

Bilirsiniz ki, biz indi turizmin inkişafı ilə çox ciddi məşğuluq və bu ilin 10 ayında Azərbaycana gələn turistlərin sayı 20 faiz artmışdır. Keçən il 24 faiz artmışdır. Turistlərin gəlişini əngəlləyən əsas məsələ viza məsələsi idi. Mən əvvəlki dövrlərdə müvafiq dövlət qurumlarına dəfələrlə ciddi tapşırıqlar vermişdim ki, viza məsələsində çox ciddi islahatlar aparılmalıdır. Ancaq o islahatlar yarımçıq qalmışdı. Biz bu məsələni “ASAN”a tapşırdıq. Bu gün mənə məlumat verilir ki, bu ilin əvvəlindən 250 min xarici vətəndaş “ASAN viza”dan istifadə edərək ölkəmizə gəlmişdir. Kommunal ödənişlər sahəsində çox böyük problemlər, çatışmazlıqlar, qüsurlar olmuşdur. İndi “ASAN kommunal” çox gözəl xidmət göstərir.

Bir müddət bundan əvvəl göstəriş vermişəm ki, biz qanunsuz məşğulluqla daha da səmərəli şəkildə mübarizə aparmalıyıq. Bu da bizi daim narahat edən məsələlərdən biri olmuşdur. Azərbaycanda işsizliklə bağlı görülən tədbirlər işsizliyi kəskin şəkildə aşağı salmışdır. Biz o vəziyyətlə üzləşdik ki, qanunsuz məşğulluq indi problemə çevrilib. İnsanlar işlə təmin edilir, amma heç bir qeydiyyata düşmür, vergisini vermir və gələcəkdə sosial təminatdan, pensiya təminatından da məhrum olurlar. Biz bu vəzifəni “ASAN”a tapşırandan sonra çox gözəl sistem yaradılıb.

“ASAN xidmət” korrupsiyaya, rüşvətxorluğa qarşı ən səmərəli vasitədir. “ASAN” bu məsələni də öz üzərinə götürüb. “ASAN” bu gün təkcə Azərbaycanı tanıtdıran və təbliğ edən milli brendimiz deyil, “ASAN” bu gün Azərbaycanda yeni, müasir, mədəni, xalqımızın mentalitetinə xas olan dəyərləri tətbiq edir, onları təbliğ edir və beləliklə, ictimai həyatda “ASAN”ın çox böyük rolu var.

**Qubada güclü xalçaçılıq ənənələri formalaşıb**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 7-də “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin Quba filialının açılışında iştirak ediblər.

“Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya burada görülən işlərlə bağlı ətraflı məlumat vermiş, bildirmişdir ki, “Azərxalça” ASC-nin Quba filialının binasının ümumi sahəsi 1300 kvadratmetrdir. Burada 150 toxucu və 12 inzibati-təsərrüfat işçisi çalışacaq. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanadakı müxtəlif ölçülü 43 dəzgahda əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində hazırlanmış tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük veriləcək.

**12 kəndin əhalisi yeni avtomobil yollarından istifadə edəcək**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonunun əsaslı şəkildə yenidən qurulan Rustov-Xanəgah-Gürdəh, Rustov-Nöydün-Şuduq, Rustov-Məckəxacə, Rustov-Bağçalı-Yekdar avtomobil yollarının açılışında iştirak edib.

Bu yolların istifadəyə verilməsi bölgədə turizmin, kənd təsərrüfatının inkişafına, əhalinin və nəqliyyatın rahat, təhlükəsiz hərəkətinin təmin olunmasına imkan yaradacaq. Yeni yolların istifadəyə verilməsi həm də sübut edir ki, bu il həyata keçirilməsi nəzərdə tutulan “40 yol layihəsi”nin icrası istiqamətində işlər uğurla davam edir.

“Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat vermişdir.

# İstanbulda İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısı keçirilir

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə toplantısında iştirak edir.

Dekabrın 13-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısı işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə Zirvə toplantısında iştirak edir.

“Qüdslə həmrəylik üçün birlikdə hərəkət” devizi altında keçirilən Zirvə toplantısına 50-dək ölkədən dövlət və hökumət başçıları qatılıb.

Əvvəlcə birgə foto çəkdirildi.

Tədbir müqəddəs “Qurani-Kərim”dən ayələrin oxunması ilə başladı.




# Hasilat Sənayesində Şəffaflıq Hesabatının yekun versiyası təqdim olunub

Azərbaycan Respublikası Dövlət Neft Fondunda (ARDNF) 2016-cı il üzrə Hasilat Sənayesində Şəffaflıq (HSŞ) Hesabatının yekun versiyası təqdim edilib.

“Moore Stephens Azerbaijan” auditor şirkəti tərəfindən hazırlanan təqdimat mərasimində Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın, vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatların, ölkədə fəaliyyət göstərən yerli və xarici hasilat şirkətlərinin nümayəndələri iştirak ediblər.



ARDNF-in icraçı direktoru Şahmar Mövsümov deyib ki, Azərbaycan Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü (MHŞT) sahəsində bir çox ilklərə imza atan ölkələr sırasında olub. Azərbaycan hasilat sənayesində ən yüksək şəffaflığı təşviq edən, beynəlxalq təşəbbüsləri dəstəkləyən və 2003-cü ildə MHŞT-yə ilk qoşulan, 2005-ci ildə dünyada MHŞT üzrə hesabatı ilk çap edən və 2009-cu ildə tamhüquqlu üzv statusunu əldə etmiş ilk ölkə olub. 2005-ci ildən başlayaraq Azərbaycan mədən hasilatı sənayesinin bütün göstəricilərini əhatə edən hesabatlar dərc edib və ümumilikdə ölkəmiz 20-dən çox MHŞT hesabatı hazırlayıb. İlk gündən etibarən Azərbaycan MHŞT-nin beynəlxalq səviyyədə ən fəal iştirakçılarından biri idi.

“Lakin ötən ildən başlayaraq Azərbaycana qarşı ikili standartların tətbiq olunması və qərəzli yanaşmalar başladı. Baxmayaraq ki, Azərbaycan dəfələrlə bunun qarşısına çıxırdı. Ancaq bu ikili standartların tətbiq olunması davam edirdi. Bu il martın 8-9-da Kolumbiyanın paytaxtı Boqota şəhərində Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün Beynəlxalq İdarə Heyətinin 36-cı iclasında Azərbaycanın MHŞT-dəki fəaliyyətinin dayandırılması barədə ədalətsiz qərar qəbul olundu. Bu ədalətsizliyə cavab olaraq isə Azərbaycan hökuməti ölkəmizin MHŞT-ni tərk etməsi barədə qərar qəbul etdi. Həmin qərarla bağlı bəyanat verildi. Azərbaycan bəyan etdi ki, ölkəmiz MHŞT-nin prinsiplərini deyil, bir təşkilat kimi MHŞT-ni tərk edir. Biz öz üzərimizə öhdəlik götürdük ki, bundan sonra da mədən hasilatında şəffaflığın tətbiq olunmasına sadiq qalacağıq. Bugünkü hesabat da həmin bəyanata sadiqliyi nümayiş etdirir. Bu gün biz Azərbaycanın MHŞT-dən kənar ilk mədən hasilatı sənayesində şəffaflıq hesabatını açıqlayırıq”, deyə Şahmar Mövsümov əlavə edib.

O qeyd edib ki, Azərbaycan MHŞT-ni tərk etdikdən sonra Prezident İlham Əliyevin 2017-ci il 5 aprel tarixli fərmanı əsasında Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya yaradıldı. “Komissiyanın çox fəal işi başladı. May ayından başlayaraq bir çox görüş keçirildi, yeni hesabat formaları təsdiq edildi. Komissiya üzvləri yekdilliklə bir fikirdə idilər ki, bizim hazırladığımız hesabat hətta MHŞT hesabatından daha ətraflı və əhatəli olmalıdır. Komissiya iyun ayında 2016-cı il üzrə HSŞ hesabatın “Moore Stephens Azerbaijan” şirkəti tərəfindən hazırlanmasına qərar verdi. Bu hesabatda ötən illərin hesabatlarının əhatə etdiyi bütün mövzular yer alıb. Hesabatda Hasilatın Pay Bölgüsü sazişi barədə, eləcə də SOCAR-ın sosial xərcləri barədə məlumatlar genişləndirilib. Yeni sxemlər əlavə olunub, “dövlət orqanlarının hasilat sənayesində rolu və vəzifələri” bölməsi təkmilləşdirilib. Yeni hesabata “Hasilat sənayesi üzrə əsas yeniliklər” bölməsi əlavə olunub.

Daha sonra “Moore Stephens Azerbaijan” auditor şirkəti tərəfindən 2016-cı il üzrə HSŞ hesabatı barədə təqdimat keçirilib.

İqtisadiyyat nazirinin müavini Sahil Babayev qeyd edib ki, Azərbaycan Hasilat Sənayesində şəffaflıq prinsiplərinə sadiqdir. Ölkədəki bütün şirkətlər HSŞ prinsiplərinə əməl etməlidir və gələcəkdə bu təşəbbüsə cəlb olunan şirkətlərin sayı arta bilər: “Beynəlxalq ictimaiyyət Azərbaycanın mədən hasilatı sənayesində şəffaflıq prinsiplərinə sadiqliyini alqışlayır. Baxmayaraq ki, Azərbaycanın bu barədə heç bir öhdəliyi yoxdur. Bu da öz növbəsində, Azərbaycana qarşı ittihamların əsassız olduğunu bir daha sübut edir”.

Nazir müavini bildirib ki, neft-qaz sektoru Azərbaycan iqtisadiyyatının əsas hissəsidir. Əvvəllər neft-qaz Azərbaycanın ÜDM-inin 70 faizini təşkil edirdisə, hazırda həmin göstərici 35 faizə enib.

# Neft Fondu bu il dövlət büdcəsinə 4,8 milyard manat transfert edib

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) bu il dövlət büdcəsinə 4,8 milyard manat transfert edib.

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq ARDNF-nin ictimaiyyətlə əlaqələr departamentindən bildirilib.

Qeyd edilib ki, cari ilin yanvar-oktyabr aylarında Dövlət Neft Fondu tərəfindən dövlət büdcəsinə transfert 4 milyard 801 milyon manat, Mərkəzi Banka isə 2 milyard 448,3 milyon manat məbləğində olub.

Xatırladaq ki, 2016-cı ildə dövlət büdcəsinin gəlirlərinin 7 milyard 615 milyon manatını (43,5 faiz) ARDNF-nin transfertləri təşkil edib.

2003-2016-cı illərdə isə ARDNF tərəfindən dövlət büdcəsinə ümumilikdə 71,5 milyard manat vəsait transfert olunub.



# “Cənub Qaz Dəhlizi”nin tərkib hissəsi olan layihələrə investisiya qoyuluşunun həcmi açıqlanıb

Cari ildə “Cənub Qaz Dəhlizi”nin tərkib hissəsi olan layihələrə investisiya qoyuluşunun həcmi açıqlanıb.

AZƏRTAC-ın sorğusuna cavab olaraq “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyətindən (CQD) bildirilib ki, cari ilin əvvəlindən dekabrın 12-dək “Cənub Qaz Dəhlizi” layihələrində CQD-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 2,3 milyard ABŞ dolları məbləğində investisiya qoyulub.



Qeyd edək ki, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan “Cənub Qaz Dəhlizi”nin seqmentlərini “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG), TANAP və TAP layihələri təşkil edir.

Bu boru xətti Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan “Cənub Qaz Dəhlizi” vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır.

# Vergilər Nazirliyi KPMG Azərbaycan ilə birlikdə "Ümumi Hesabatlılıq Standartları" mövzusunda seminar keçirib

Vergilər Nazirliyi Maliyyə Bazarlarına Nəzarət Palatası və KPMG Azərbaycan şirkətinin iştirakı ilə banklar və maliyyə sektoru təşkilatları üçün "Ümumi Hesabatlılıq Standartları (CRS)" mövzusunda seminar keçirib.

Seminarda bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin 18-ci hissəsinə əsasən, Azərbaycan Respublikası "Maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşma"ya qoşulub. Həmin razılaşmaya əsasən, onu imzalayan dövlətlər vergitutma məqsədləri üçün xarici dövlətlərin rezidentləri olan fiziki və hüquqi şəxslərin maliyyə institutlarındakı hesabat verilməli hesabları barədə məlumatları toplamalı və həmin şəxslərin rezidenti olduqları dövlətlərlə avtomatik mübadilə aparmalıdırlar. Bu məqsədlə həmin dövlətlərdə mübadilənin vahid prinsiplərini tənzimləyən Ümumi Hesabatlılıq Standartı (Common-Reporting Standard – CRS) tətbiq edilməlidir.

Azərbaycan Respublikası maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında Çoxtərəfli Razılaşmaya qoşulmaq barədə Bəyanatı 2017-ci il iyunun 1-də imzalayıb. Həmin bəyanata əsasən, Azərbaycan Respublikası tərəfindən ilk mübadilənin 2018-ci ilin sentyabr ayında həyata keçirilməsi nəzərdə tutulur.

Seminarda Ümumi Hesabatlılıq Standartları və onun əsas elementləri, CRS və FATCA arasındakı əsas fərqlər, CRS-nin Azərbaycandakı təbliği ilə bağlı Vergilər Nazirliyinin gördüyü işlər və bu istiqamətdə qarşıda duran vəzifələr müzakirə olunub.

## VERGİ ÖDƏYİCİLƏRİNİN NƏZƏRİNƏ!

**2018-ci il 1 yanvar** tarixindən etibarən statusundan asılı olmayaraq, **bütün vergi ödəyiciləri** tərəfindən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-faktura təqdim edilməlidir.

Vergi Məcəlləsinə əsasən, sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı elektron qaimə-faktura vermək vergi ödəyicinin vəzifələrinə aid edilmişdir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura "Onlayn rejimdə" Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən, "Asan imza") vasitəsi ilə elektron qaydada tərtib edilərək və ya "Lazımi proqramlar"dan istifadə edilməklə "Oflayn rejimdə" tərtib edildikdən və elektron imza (o cümlədən, "Asan imza") vasitəsi ilə imzalandıqdan sonra malların, işlərin və xidmətlərin alıcısına göndərilir.

Odur ki, sahibkarlıq fəaliyyəti məqsədləri üçün mal (iş, xidmət) alınarkən həmin malların (işlərin, xidmətlərin) alınmasını təsdiq edən elektron qaimə-faktura satıcıdan tələb edilərək alınmalıdır.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturadan ən azı biri olmadıqda alıcıya təqvim ili ərzində belə hala -

- *birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,*
- *ikinci dəfə yol verdikdə **20 faizi**,*
- *üç və daha çox dəfə yol verdikdə isə **40 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.*

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

*Azərbaycan Respublikası Vergilər Nazirliyi*

# PAŞA Bank "The Banker" tərəfindən "İlin Bankı" adına layiq görülmüşdür

Beynəlxalq maliyyə jurnalı "The Banker" tərəfindən Londonda 18-ci "İlin Bankı" mükafatının təltif edilməsi mərasimi keçirilmişdir. Azərbaycanın aparıcı korporativ bankı PAŞA Bank ölkədən bu nüfuzlu mükafatın qalibi olmuşdur.

Bu il dünyanın 140-dan çox ölkəsindən aparıcı banklar bu mükafatla təltif edilmişdir. PAŞA Bank ilə yanaşı, bu mükafat Raiffeisen Bank, Societe Generale, BNP Paribas v s. bu kimi beynəlxalq maliyyə təşkilatlarına da verilmişdir.

PAŞA Bankın İdarə heyətinin Sədri Taleh Kazımovun sözlərinə görə, belə bir nüfuzlu beynəlxalq mükafatın alınması ilk növbədə Bankın güclü maliyyə təşkilatı kimi tanınmasının təzahürüdür.

"Artıq bu gün biz deyə bilərik ki, 2017-ci il üzrə əsas nailiyyətlərimiz biznes həcmlərinin aktiv şəkildə artırılması və kredit portfelinin yüksək keyfiyyətinin saxlanılmasından ibarət olmuşdur. Bunları nəzərə alaraq bu mükafata layiq görülməyimizi biz təkcə Bankın deyil, həm də bütün müştərilərimizin uğuru kimi qiymətləndiririk. Bu il ərzində PAŞA Bankda mənimsənilmiş "nou-xau" bizə və müştərilərimizə daha da səmərəli əməkdaşlıq qurmağa və tərəfdaşlığın yeni səviyyəsinə çıxmağa yardım etmişdir", - deyə Kazımov öz fikrini yekunlaşdırmışdır.

"Financial Times" nəşriyyat qrupunun bir hissəsi olan "The Banker" jurnalı 1926-cı ildən etibarən dərc olunur və aparıcı beynəlxalq maliyyə nəşriyyatlarından biridir.

Mükafat qaliblərinin siyahısını müəyyən edərkən jurnalın redaksiyası təkcə bankların maliyyə nəticələrini deyil, həm də inkişaf strategiyalarının həyata keçirilməsi və yeni standart və texnologiyaların tətbiq edilməsi sahəsindəki də nailiyyətləri nəzərə alır.

# Bankların qeyri-işlək aktivlərinin idarə edilməsi üzrə hüquqi mexanizmlər yaradılır



Maliyyə Bazarlarına Nəzarət Palatasından (MBNP) AZƏRTAC-a bildiriblər ki, MBNP və banklar arasında görüş keçirilib. Azərbaycan Banklar Assosiasiyasının (ABA) təşkilatçılığı ilə baş tutan görüşdə "Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin "Qeyri-işlək aktivlərin idarə edilməsi üzrə hüquqi mexanizmlərin yaradılması" sərlövhəli tədbirin icrası üzrə Dünya Bankı ilə birlikdə hazırlanmış "Bakı yanaşması"nın təqdimatı keçirilib.

"Bakı yanaşması" əvvəlcədən müəyyən edilmiş parametrlər üzrə bankların balansında olan qeyri-işlək aktivlərin restrukturizasiyası və bu çərçivədə ABA, palata və prosesdə iştirak etmək niyyətində olan banklar arasında kollektiv sazişin bağlanılmasını nəzərdə tutur. Bu yanaşmanın əsas məqsədi hüquqi şəxslər, banklar və aidiyyəti şəxslər arasında razılaşma əldə edilməklə itkilərin azaldılması və hələ də sağlamlaşma imkanı olan bizneslərin lüzumsuz iflasının qarşısının alınmasıdır. Konsepsiyanın əsas xüsusiyyəti ondan ibarətdir ki, burada banklar balansında olan qeyri-işlək aktivlərin həlli ilə bağlı fərdi deyil, kollektiv maraqlar üzrə əməkdaşlıq edir. Borcların restrukturizasiyası ilə bağlı qərarlar yekdilliklə qəbul edilir. Qeyri-işlək aktivlərin restrukturizasiyası ilə bağlı "Bakı yanaşması" banklar tərəfindən maraqla qarşılanıb və bu çərçivədə kollektiv sazişin bağlanması məqsədilə danışıqlara başlanılması, bankların və palatanın nümayəndələrindən ibarət tərkibdə işçi qrupunun yaradılması qərara alınıb.

# "AtaSığorta" ASC "İlin Sığorta Şirkəti" nominasiyası üzrə "Uğur 2017" Milli Mükafatına layiq görüldü

08 dekabr 2017-ci il tarixində Rixos Quba Otelində "Consulting and Business" jurnalı özünün ənənəvi "Uğur 2017" mükafatının təqdimetmə mərasimini keçirdi. "AtaSığorta" ASC "İlin Sığorta Şirkəti" nominasiyası üzrə "Uğur 2017" Milli Mükafatına layiq görüldü. Mükafat "AtaSığorta" ASC-nin İdarə Heyəti sədrinin birinci müavini Orxan Məmmədova təqdim olundu.

"Uğur 2017" Milli Mükafatı iqtisadiyyatın və biznesin müxtəlif sahələrinin inkişafında və güclənməsində fəal iştirak edən şirkətlərə, iş adamlarına, dövlət və ictimai xadimlərə təqdim olunur. Hər zaman müştəri məmnuniyyətinə xüsusi önəm verən "AtaSığorta" ASC bundan sonra da Azərbaycanda sığorta sahəsinin inkişafına daim yeni-yeni töhfələr verəcəkdir.




"AtaHolding" Sirkətlər Qrupuna daxil olan AtaSığorta 2004-cü ildən sığorta bazarında fəaliyyət göstərir. Şirkət 24 könüllü və 4 icbari sığorta növü üzrə müştərilərinə xidmət edir. İcbari Sığorta Bürosunun təsisçisi və iştirakçısıdır. Bütövlükdə, "AtaSığorta" ASC-nin xidmət şəbəkəsinə 90-dan artıq filial, nümayəndəlik və ofislər daxildir.

# Banklararası pul bazarının yaradılması müzakirə olunub

Banklararası pul bazarının yaradılması və fəaliyyət mexanizmləri haqqında fikir mübadiləsi aparılıb.

Azərbaycan Banklar Assosiasiyasının məlumatlarına əsasən, fikir mübadiləsi ABA və Dünya Bankının nümayəndələri arasında keçirilən görüşdə aparılıb.

Görüşdə ABA-nın prezidenti Zakir Nuriyev, icraçı direktoru Yunus Abdulov, daxili audit, mühasibat uçotu, vergi və hesabatlılıq üzrə ekspert qrupunun sədri Zakir Kazımov, həmçinin Dünya Bankının nümayəndələri Cigdem Aslan, Zsolt Bango və Filip Anderson iştirak edib. Görüş zamanı qiymətli kağızlar bazarındakı vəziyyət, bankların qiymətli kağızlar bazarındakı iştirakı və gələcək perspektivlər müzakirə olunub.



Həmçinin, dövlət qiymətli kağızlar bazarının inkişafı ilə bağlı məsələlərə toxunulub, banklararası pul bazarının yaradılması və fəaliyyət mexanizmləri haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, ABA 1990-cı ildə kommersiya bankları tərəfindən təsis edilib. ABA-nın əsas məqsədi üzv-təşkilatların maraqlarını qorumaq, onların müxtəlif növ işgüzar xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yardım göstərmək və fəaliyyətlərini əlaqələndirməkdən ibarətdir.

Hazırda 30 bank və 2 bank olmayan kredit təşkilatı, eyni zamanda, "Azericard" MMC ABA-nın üzvüdür.

# Paytaxtın sosial və iqtisadi sahələrinin inkişafı üçün əsas kapitala 11301,8 milyon manat yönəldilib

Bu ilin yanvar-oktyabr aylarında Bakı şəhərinin sosial və iqtisadi sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 11301,8 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz az vəsait yönəldilib.



Bakı şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, ümumi sərmayənin 34,0 faizi dövlət, 66,0 faizi qeyri-dövlət sektorunun sərmayədarlarının payına düşüb.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 71,2 faizi tikinti-quraşdırma işlərinə sərf edilib.

Bundan başqa, həmin dövr ərzində Bakı şəhərində Bakı Ali Neft Məktəbinin yeni kampusu, Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binası, Pirallahı rayonunda körpü, "Pirallahı" Günəş Elektrik Stansiyası, Balaxanı Sənaye Parkı, Bakı-Tbilisi-Qars dəmir yolu, Pirşağı-Novxanı və Binəqədi-Novxanı avtomobil yolu istifadəyə verilib.

## Nar və nar məhsulunun ixrac miqyasının genişləndirilməsi üçün təbliğat tədbirləri keçiriləcək



Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) AZƏRTAC-a bildiriblər ki, dekabrın 11-də AZPROMO ilə Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası (ANİİA) və "Bank Silk Way" ASC arasında üçtərəfli anlaşma memorandumu imzalanıb. Memoranduma əsasən, Azərbaycanın nar və nar məhsulunun dünya bazarında tanıdılması və ixrac miqyasının genişləndirilməsi üçün təbliğat tədbirlərinin keçirilməsi nəzərdə tutulur.

## Azərbaycanda alma konsentratı istehsalı üzrə müəssisə yaradıla bilər

"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin icrası məqsədilə bir sıra rayon və şəhərlərdə kiçik və ortaölçülü emal müəssisələrinin yaradılması məqsədəuyğun hesab edilib.



AZƏRTAC Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fonduna (AZPROMO) istinadla xəbər verir ki, Quba və ya Qusar rayonunda illik istehsal gücü 50 min ton olan alma konsentratı zavodu inşa edilə bilər. Quba, Qusar və Xaçmaz rayonlarında kiçikhəcmli meyvə emalı (o cümlədən qurudulması), kiçik və ortahəcmli meyvə emalı və meyvəqurutma, eləcə də meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması məqsədəuyğun hesab olunub.

Eyni zamanda, Gəncə-Qazax, Aran, Şəki-Zaqatala, Lənkəran, Dağlıq Şirvan, Yuxarı Qarabağ iqtisadi rayonları üzrə bu cür müəssisələrin yaradılması tövsiyə olunub.

## Bu il muzdla çalışanların 878,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda fəaliyyət göstərib

Noyabrın 1-nə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1517,8 min nəfər olub. Onlardan 878,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 639,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 21,8 faizi təhsil, 19,2 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,9 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,1 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 6,6 faizi tikinti, 4,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 10,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

2017-ci ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,4 faiz artaraq 525,4 manata çatıb. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.



## BMT: 2018-ci ildə Azərbaycan iqtisadiyyatı artacaq

BMT 2018-ci ildə Azərbaycan iqtisadiyyatının 1,8 faiz artacağını proqnozlaşdırır. Bu barədə təşkilatın İqtisadi və sosial məsələlər departamentinin hazırladığı "Dünya iqtisadiyyatının vəziyyəti və perspektivlər" adlı hesabatda deyilir.

Hesabata əsasən, 2017-ci ildə Azərbaycanın ÜDM-i 1 faiz azalacaq, 2019-cu ildə isə 2,3 faiz artacaq.

Qeyd olunur ki, 2018-2019-cu illərdə ölkə iqtisadiyyatının bərpasına "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qaz hasilatına başlanması da kömək edəcək. BMT-nin 2018-ci ilə proqnozları Azərbaycan hökumətinin gözləntilərini üstələyir. Belə ki, hökumət 2018-ci ildə ÜDM-in real artımını 1,5 faiz səviyyəsində proqnozlaşdırır. Hökumət 2017-ci ildə iqtisadi artımın 0,3 faiz səviyyəsində olacağını gözləyir.

## Azərbaycanda avtobus istehsalına başlanılacaq

Gəncə Avtomobil Zavodu gələn ildən etibarən avtobusların istehsalına start verəcək.

Zavoddan bildirilib ki, 2018-ci ildə müəssisədə sifarişlər əsasında "KAMAZ", "URAL", "MAZ" avtomobillərinin, həmçinin "Belarus" traktorlarının yığılması davam etdiriləcək.

Həmçinin, gələn ildən etibarən avtobusların yığılması planlaşdırılır. Bununla bağlı artıq müəssisənin xidmət və marketinq bölməsində tədqiqatlar aparılır. GAZ-dan bildirildi: "İstehsal xətlərinin sıxlığı nəzərə alınaraq avtobus istehsalı üçün 30 min kvadratmetr sahəsi olan yeni istehsalat sahəsi yaradılır. Burada ən müasir avadanlıqla təchiz olunan texnoloji xətlər quraşdırılacaq".

Zavod rəhbərliyinin sözlərinə görə, gələn il buraxılacaq avtobuslar "MAZ" markasına aid olacaq. Gəncə Avtomobil Zavodu eksperimental olaraq artıq 2 ədəd "MAZ" avtobusu istehsal edib.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

# *Azərbaycanın qədim mədəniyyət mərkəzi - Şəki şəhəri*

Bu gün Şəki şəhərinin sosial-iqtisadi inkişaf proqramı uğurla həyata keçirilir. 2017-ci ilin hesablamalarına görə, Şəki şəhərində faktiki qiymətlərlə 279 milyon 786 min manatlıq məhsul buraxılmışdır ki, bu da 2016-cı ilin yanvar-sentyabr ayları ilə müqayisədə 92 faiz təşkil edir. Buraxılmış məhsulun 9 faizi dövlət, 91 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür. Adambaşına faktiki qiymətlərlə 1511 manatlıq məhsul buraxılmışdır. Rayon üzrə orta aylıq əməkhaqqı 245 manat olmuşdur. 2017-ci ilin 9 ayında Şəki rayonunda 2636 yeni iş yeri açılmışdır ki,onların da hamısı daimi iş yerləridir. 2017-ci ilin 9 ayında Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 303 milyon 405 min manat olmuşdur. Əvvəlki ilin müvafiq dövrünə nisbətən əmtəə dövriyyəsinin həcmi 0,5 faiz artmışdır. Hazırda Şəki rayonunda 19 sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da 9-u kiçik müəssisədir. 2017-ci ildə Şəki rayonunda istehsal və qeyri-istehsal sahələrinin inkişafına yönəldilmiş investisiyanın 87,9 faizi dövlət, 12,1 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşür.

"Azərbaycan Respublikasında ipəkçiliyin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" cənab Prezident İlham Əliyev tərəfindən imzalanmış Sərəncam ölkəmizdə ipəkçiliyin müasir infrastrukturunun yaradılması, barama toxumçuluğunun təşkili istiqamətində atılan növbəti mühüm addım olmaqla yanaşı, barama istehsalının dinamik inkişafında mühüm rol oynamışdır. Ötən ilin payız mövsümündə Şəki rayonda 50 min yerli, 25 min xaricdən gətirilmiş tut tingi əkilmiş, yeni kümxanalar qurulmuş, gənc kümdarların hazırlanması istiqamətində maarifləndirmə tədbirləri görülmüşdür. Həyata keçirilən bu və ya digər tədbirlər rayonda barama istehsalının inkişafına müsbət təsir göstərmişdir. Şəki rayonunda 2015-ci ildə cəmi 200 kiloqram barama istehsal edildiyi halda, 2017-ci ildə istehsalın həcmi 18 tona çatdırılmışdır. Məhz ölkə başçısının təşəbbüsü ilə həyata keçirilən operativ tədbirlər nəticəsində bu sahədə ciddi dönüş yaranmış, Şəki ipək kombinatı öz fəaliyyətini bərpa etmişdir. 2018-ci ildə baramaçılığın inkişafına nail olmaq üçün indidən geniş hazırlıq işlərinə başlanmalıdır. Ölkə başçısı tərəfindən qarşıya qoyulan vəzifələri əldə rəhbər tutaraq 2018-ci ildə rayonda 70 ton barama istehsal edilməsi nəzərdə tutulmuşdur. Onu da qeyd edək ki, daha çox barama istehsal olunması üçün rayonda kifayət qədər yem bazası mövcuddur. İndi qarşıda duran ən başlıca vəzifə rayon ərazisində mövcud olan bütün toxmacar bağlarının, eləcə də yol və sahə kənarlarında, ictimai yerlərdə olan toxmacar ağaclarının dəqiq uçotunu aparmaq, qısa müddət ərzində onlara aqrotexniki qaydalara uyğun qulluq göstərməkdir.

Şəki lap qədimdən məşhur ipəkçilik bölgəsi kimi tanınmışdır və əhalinin tarixən əsas məşğuliyyət sahələrindən biri baramaçılıq olub. Əvvəllər kustar şəkildə bu işlərlə məşğul olunsa da, XIX əsrdən Şəkidə fabriklər, manufakturalar yaranmağa başladı. Beləliklə, baramaçılıqla yanaşı, təbii ipəkdən müxtəlif növ parçaların və məşhur Şəki kəlağayısının istehsalı ilə məşğul olan sənaye sahəsi yaranmağa başladı.

Hazırda "Şəki-İpək" ASC kimi fəaliyyət göstərən bu müəssisə 1931-ci ildə işə salınmış, sonralar inkişaf etdirilərək respublikada ipəkçiliyin mərkəzinə çevrilmişdir. Müəssisə işə düşdüyü dövrdə ancaq təbii ipək istehsal etmişdir. Sonralar xam parça istehsalına başlanılmışdır. İstehsal olunan təbii ipək əvvəllər kənara satılmış, xam parça isə emal üçün Gürcüstana göndərilmişdir. Toxunan xam parçanı emal etmək üçün 1940-cı ildə müəssisədə kiçik boyaqçı sexi işə salınmışdır. Beləliklə, istehsal olunan xam parçanı daxildə emal edərək, hazır məhsul kimi satmağa imkan yaranmışdır.

Cəmiyyətdə xam parça istehsalı get-gedə artdığından mövcud boyaqçı sexi kifayət etmirdi. Ona görə də 1957-ci ildə yeni boyaqçı sexi və naxışlama sexləri tikilib istifadəyə verilmişdir. Bu tədbirin həyata keçirilməsi nəticəsində hazır ipək parça istehsalı 5 milyon metrə çatdırılmışdır.

Şəhər əhalisinin artımı yeni iş yerlərinin çoxalmasını tələb edirdi. Buna görə də əhalini yeni iş yerləri ilə təmin etmək məqsədilə 1969-cu ildə 750 dəzgahlıq toxucu sexi tikilib istifadəyə verilmişdir. Yeni toxuculuq istehsalatının istifadəyə verilməsi nəticəsində xam parça istehsalı ildə 18 milyon paqometrə çatmışdır. 1965-ci ildə Şəkidə olan ipəkaçan fabriklərin hamısı "Şəki-İpək" SC-yə birləşdirilmiş və "Şəki-İpək" istehsalat birliyi yaradılmışdır. Burada işləyən işçilərin sayı 6 min nəfərə çatmışdır. Müəssisə müntəzəm olaraq yeni maşın və mexanizmlərlə təmin edildiyindən onun istehsal gücü durmadan artırdı. Xam parça istehsalı kəskin artdığından artıq onu emal etməyə mövcud boyaq-bəzək istehsalatının gücü çatmırdı. Bir tərəfdən də Xankəndində istehsal olunan xam parça müəssisəyə verildi.

Xam parçanın kəskin artımı yeni boyaq- bəzək fabrikinin tikilməsini zəruri etmişdi. Köhnə boyaq-bəzək istehsalatı emal prosesini təmin etmir, məhsulun keyfiyyəti aşağı olurdu. Dəfələrlə müxtəlif təşkilatlar qarşısında məsələ qaldırılmasına baxmayaraq, yeni boyaq- bəzək fabrikinin tikilməsi məsələsi həll edilmirdi.

O, yeni boyaq-bəzək fabrikinin tikilməsi məsələsini həll etdi və həmin fabrikdə yeni xarici avadanlıqlar quraşdırılmasına nail oldu. Boyaq-bəzək fabrikinin tikilməsinə və yeni xarici avadanlıqlar alınmasına 23 milyon dollar vəsait xərcləndi. O dövrdə belə məsələləri həll etmək, Sov. İKP MK-nı inandırmaq çox çətin idi. Buna cənab Prezident Heydər Əliyevin gücü çatardı və çatdı da.

Son nəticədə Səhmdar Cəmiyyətin istehsal gücü:

- xam ipək parça istehsalı üzrə filiallarla birlikdə 240 tona;
- xam parça üzrə 18 milyon kvadratmetrə;
- hazır parça istehsalı üzrə 43 milyon kvadratmetrə çatdırılmışdır.

Müəssisə indiki pulla ildə 240 milyard manatlıq məhsul istehsal etmiş və o vaxtki ittifaqın 200-dən çox bazasına göndərmişdir.

Lakin sovetlər birliyinin dağılması, iqtisadi əlaqələrin qırılması nəticəsində bir çox sahələr kimi, ipəkçiliyin də tənəzzülə uğraması prosesi baş verdi. Ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ipək sənayesi yenidən bərpa olundu. Onun bilavasitə tapşırığı, imzaladığı müvafiq Sərəncamla dövlət büdcəsindən vəsait ayrılmaqla kombinat fəaliyyətə başladı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ipəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsi, əhalinin məşğulluğunun artırılması məqsədilə imzaladığı 2016-cı il 15 sentyabr tarixli Sərəncam bu sahəyə olan marağın güclənməsinə müsbət təsir göstərdi.

Barama istehsalı ilə məşğul olan şəxslərə son məhsula görə subsidiya verilməsi əhali arasında bu sahəyə marağı daha da artırıb. Nəticədə, ipəkçiliyin inkişafına yenidən təkan verilib və 2015-ci ildə cəmi bir rayonda 725 kiloqram yaş barama istehsal edildiyi halda, 2016-cı ildə 24 rayon üzrə 70 ton, 2017-ci ildə isə 30 rayonu əhatə etməklə 244 ton yüksək keyfiyyətli yaş barama istehsal olunub. Başqa sözlə, bu il 2015-ci ilə nisbətən 337 dəfə çox yaş barama istehsal edilib. Bununla bərabər, keçən il baramaçılığın coğrafiyasının genişləndirilməsi məqsədilə çox ciddi addımlar atılıb, 37 rayonda 1,7 mln. tut tingi əkilib. Bu da 2019-cu ildə 1300 ton yaş barama istehsalına imkan yaratmaqla yanaşı, müəssisəmizin tam gücü ilə işləməsini təmin edəcəkdir.



Qeyd olunmalıdır ki, ipəkçiliyin inkişafının stimullaşdırılması, yeni emal sahələrinin yaradılması, istehsal gücünün artırılması, maddi-texniki bazanın gücləndirilməsi və ipəkçiliyin inkişaf modelinin hazırlanması istiqamətində "Şəki-İpək" ASC tərəfindən İqtisadiyyat Nazirliyi ilə birgə araşdırmalar aparılır və bununla əlaqədar xarici təcrübənin öyrənilməsi üçün xarici ekspertlərin cəlb olunması məsələləri müzakirə edilir. Eyni zamanda, "Şəki-İpək" ASC ipəkçilik məhsullarının ixrac imkanlarının genişləndirilməsi ilə əlaqədar AZPROMO ilə əməkdaşlıq edir. Həmçinin, müəssisəyə dövlətin 3 milyon manatadək güzəştli krediti verilib.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyətinin köməyi ilə "Şəki ipək" ASC-nin baramaaçan istehsalatı, köhnə qazanxana və baramanın ilkin emalı təsərrüfatlarında bu il əsaslı təmir işləri aparılıb, müəssisənin buxara olan tələbatının tam ödənilməsi üçün xaricdən yeni buxar qazanı gətirilib və qazanxana təsərrüfatı yenidən qurulub. Müəssisənin baramaaçan, burucu, toxucu, kəlağayı və boyaq-bəzək istehsalı yenidən bərpa olunub, 600 nəfər daimi işlə təmin edilib.

Görülmüş tədbirlər nəticəsində ölkəmizdə yaş barama istehsalının bir neçə min tona çatdırılması 50 mindən çox kəndli-fermer ailəsinin (və yaxud təxminən 200 min nəfərin) tut ipəkqurdunun bəslənməsi üçün mövsümi işlə təmin olunacağına, bu işlə əhalinin həssas qruplarının (qadınların və əlillərin) da məşğul ola biləcəyinə, eləcə də "Şəki-İpək" ASC-də 1500-dək daimi iş yerinin açılacağına, beynəlxalq standartlara uyğun xam ipək və ipək məhsulları istehsalı hesabına ölkənin ixrac potensialının artacağına səbəb olacaqdır.

Əminliklə demək olar ki, belə əhəmiyyətli addımların atılması nəticəsində gələcəkdə ipəkçilik sahəsində qarşıda duran mühüm məsələlər öz həllini tapacaq, bu sektorun gəlirli sahələrdən birinə çevrilməsinə imkan yaranacaqdır.

**Nailə CABBAROVA**

# Müəssisədə istehsal xərclərinin idarə edilməsinin informasiya təminatı və onun xarakterik xüsusiyyətləri

Bazar iqtisadi mühitində müəssisələr dəyişən rəqabət münasibətləri şəraitində və mürəkkəb istehsal strukturu ilə əlaqədar daha da operativ və səmərəli idarəetmə qərarları qəbul etmək çağrışı ilə üzləşir. Bu isə, ilk növbədə müəssisədə qərarların çevik qəbul edilməsi və bu qərarların strateji qiymətləndirilməsi üçün təkmil informasiya-idarəetmə uçot sistemi olmasını şərtləndirir. Qeyd etmək lazımdır ki, müəssisə və onun ayrı-ayrı strukturlarının fəaliyyətinin planlaşdırılması və nəzarətin audit funksiyalarının təşkil edilməsində bu uçot sistemlərinin müstəsna əhəmiyyəti vardır. Təsərrüfat əməliyyatları nəticəsində baş verən istehsal xərclərinin idarə edilməsi də müəssisənin idarəetmə sisteminin altsistemi olmaqla, təsərrüfat proseslərinin hər bir mərhələsində resursların istifadəsinin effektivliyinin təmin edilməsinə yönəldilmiş sistemli fəaliyyəti özündə ehtiva edir.

Operativ (cari) və strateji qərarların qəbul edilmə sferası olan xərclərin idarə edilməsi xərc uçot məlumatlarına əsaslanır ki, bu məlumatlar da ilkin mühasibat-uçot sənədlərinə və digər normativ aktlara və müqavilələrə istinad edir.

Xərcin idarə edilməsi məlumatlarına gəlirlər və xərclər kimi maliyyə (monetar) məlumatları və istehlakçı məmnuniyyəti, keyfiyyət, məhsuldarlıq kimi qeyri-maliyyə məlumatları daxil olunur. Bu məlumatlardan daha çox xərclərin və maliyyə nəticələrinin optimallaşdırılması və qərarların əsaslandırılması zamanı istifadə olunur.

Hər bir təşkilatda uçot informasiya sistemini iki altsistemə bölmək olar: 1) maliyyə-uçot informasiya sistemi, 2) idarəetmə-uçot informasiya sistemi.

Bölgünün bu şəkildə aparılmasının başlıca səbəbi informasiya istifadəçilərinin tələbat və ya ehtiyacları ilə bilavasitə bağlıdır.

Belə ki, daha çox xarici bazar istifadəçilərini (banklar, investorlar, kreditorlar və digər maraqlı tərəflər və s.) etibarlı və müqayisə oluna bilən informasiya ilə təmin edən maliyyə-uçot informasiyası müəssisədə adətən illik, bəzən də rüblük hazırlanır. Maliyyə uçot məlumatlarının əsas xarakterik xüsusiyyəti müqayisə oluna bilməkdir. Müəssisənin məsuliyyət mərkəzlərində baş verən təsərrüfat prosesləri və əməliyyatları üzrə qərarların



qəbul edilməsini çətinləşdirən maliyyə-uçot informasiya sistemi müəyyən standartlar, empirik qaydalar və formatlar əsasında hazırlanır. Vahid uçot standart və prinsiplərinə uyğun maliyyə uçotu məlumatlarından xərclərin səmərəli idarə edilməsi məqsədləri üçün istifadə imkanları məhdud olur ki, bu da xərclərin uçot sistemi üzrə məlumatların əldə olunmasını bir daha aktuallaşdırır.

Beynəlxalq səviyyədə maliyyə-uçot məlumatlarının hazırlanması "Ümumi qəbul edilmiş uçot prinsipləri"nə (GAAP) və ya "Beynəlxalq maliyyə hesabatlarının hazırlanması standartları"na (İFRS) əsaslanır ki, uçot məlumatlarında ardıcıllıq prinsipinin yaranmasını təmin edir. Beləliklə, maliyyə hesabatının hazırlanması məqsədilə xərc-uçot məlumatlarından satışın maya dəyərinin və hazır məhsulun qalığının (cari aktiv kimi balansda öz əksini tapır) dəyərləndirilməsi üçün istifadə olunur.

Müəssisədə ayrı-ayrı istehsal prosesləri və bu proseslər üzrə yaranan məsrəflər, eynilə xərc drayverləri barədə relevant informasiyaların əldə edilməsi və əməliyyat qərarlarının verilməsinə imkan verməyən maliyyə-uçot informasiya sisteminin çatışmazlığını xərc-uçot informasiya sistemi aradan qaldırır. Xərc-uçot informasiya sistemi geniş miqyasda müəssisənin əməliyyat, maliyyə və kapital qoyuluşları üzrə fəaliyyətindən yaranan məsrəflər barəsində informasiyanı, əsasən, iki mənbədən əldə edir ki, onlar da aşağıdakılardır.

• Uçot məlumatları - bura mühasibat (maliyyə) uçotu və hesabatlar, statistika uçotu və hesabatlar, operativ uçot və hesabatlar və seçmə uçot məlumatları daxildir;

• Qeyri-uçot məlumatları - bura isə reqlamentləşdirilmiş idarədaxili və xarici audit və təftiş materialları, vergi yoxlamaları, istehsalat və əmək kollektivinin toplantısının protokolları, izahedici və hesabat xarakterli qeydlər və s. daxildir.

Xərc-uçot informasiyaları daxili istifadəçilər və ya menecerlər üçün nəzərdə tutulmuş bir informasiya sistemidir və əldə edilmiş uçot məlumatları xarici maraqlı tərəfdaşlar üçün ictimailəşdirilmir. Buradan da qeyd etmək olar ki, xərc-uçot məlumatları müqayisə olunan deyildir və hər təşkilat üçün istifadəçinin maraqlarına uyğun və əməliyyat məqsədlərinə müvafiq hazırlanır. Beləliklə, ümumiləşdirərək xərc idarəetmə sistemi planlaşdırma, nəzarət-kontrollinq, davamlı inkişaf etmək və qərar qəbulu məqsədləri çərçivəsində məhsulların maya dəyəri, ayrı-ayrı müştəri, təchizatçı və relevant xərc obyektləri üzrə çəkilmiş istehsal xərclərinin müəyyən edilməsi üçün daxili istifadəçilər üçün aidiyyəti məlumatları müəyyən edir, toplayır, ölçür (dəqiqləşdirir), təsnifləşdirir və bəyan edir.

Xərclərin idarə edilməsi üçün məhsul istehsalı və satışının hər bir mərhələsində istifadə olunan istehsal resursları və ya baş verən xərclər barədə dəqiq informasiya əldə etmək lazımdır. İnformasiyanın natamamlığı və onun aşağı keyfiyyətli olması müəssisədə xərclərin effektiv idarə edilməsi imkanlarını pişləşdirir ki, bu da yekunda təsərrüfat nəticələrinin zərərlə yekunlaşmasına gətirib çıxarır. Bununla yanaşı, müəssisənin uzunmüddətli strateji hədəflərinə uyğun olmayan xərc-uçot məlumatları sistemi məhsulun rəqabətliliyinin pisləşməsinə, müəssisənin uzunmüddətli aktivlərdən və cari istehsal ehtiyatlarından istifadəsinin səmərəliliyinin aşağı düşməsinə, xərclərin uçotu və öhdəliklər üzrə ödənişlərin təmin edilməsinə, bir sıra ciddi qüsurların yaranmasına gətirib çıxarır.

Qeyd etmək lazımdır ki, xərc uçot informasiya sistemi özündə müəssisədə əsas fəaliyyət sahələri olan istehsal, təchizat, satış, müştəri xidmətləri, keyfiyyət, maliyyə, nəzarət və audit fəaliyyətlərini birləşdirən uçot informasiya sisteminin altsistemini təşkil edir.

**Elçin Camalov,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı**

# Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı "Böyük İpək Yolu"nun rəqəmsallaşmasına töhfə verə bilər

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Vüsal Qasımlı Qazaxıstanın Almatı şəhərində "Bir kəmər - bir yol" təşəbbüsünün Mərkəzi Asiya iqtisadiyyatına təsirinin qiymətləndirilməsi" adlı seminarda iştirak edib.



İİTKM-dən bildiriblər ki, tədbirdə əsas müzakirə mövzusu "Bir kəmər - bir yol" təşəbbüsünün Mərkəzi Asiya iqtisadiyyatına təsirinin qiymətləndirilməsi, həmçinin BMT-nin davamlı layihələrinin həyata keçirilməsi olub. Seminarda investisiya qoyuluşu, ticarətin genişləndirilməsi və bu kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Vüsal Qasımlı "Böyük İpək Yolu"nun rəqəmsallaşdırılması mövzusunda çıxış edib. O bildirib ki, Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı dünyada 2-ci belə qovşaq olmaqla "Böyük İpək Yolu"nun rəqəmsallaşmasına töhfə verə bilər. V.Qasımlı "Böyük İpək Yolu" üzrə elektron imzaların qarşılıqlı tanınması istiqamətində təşəbbüs irəli sürüb və bu təklif seminar iştirakçıları tərəfindən müsbət qarşılanıb.

Eyni zamanda, "Böyük İpək Yolu" üzrə elektron ticarətin, elektron kommersiyanın, elektron bankçılığın inkişafı məsələlərinə də toxunan icraçı direktor vurğulayıb ki, Azərbaycan "Böyük İpək Yolu"nun rəqəmsallaşdırılması ilə bağlı öz Rəqəmsal Ticarət Qovşağı vasitəsilə böyük işlər görüb. Hazırda bu istiqamətdə müəyyən layihələrin və təşəbbüslərin icrası davam edir.

Vüsal Qasımlı seminarda "Bir kəmər - bir yol" layihəsi üzrə işçi qrupların yaradılması mövzusunda sessiyaya rəhbərlik edib. Sessiya zamanı BMT ekspertlərinin də məruzələri dinlənilib.

Qeyd edək ki, seminarda Azərbaycan, Çin, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan 60-dək nümayəndə iştirak edib.

# AtaBank "Uğur-2017" Milli mükafatına layiq görülüb

Dekabrın 8-də Rixos Quba Azerbaijan otelində baş tutan mərasimdə "Consulting and Business" jurnalı ənənəvi "Uğur-2017" Milli mükafatının təqdimetmə mərasimini keçirib. 2017-ci ilin yekunlarına görə, "AtaBank" ASC Azərbaycanda ilk dəfə konsolidasiya prossesini uğurla başa vurduğuna və il ərzində imza atdığı uğurlara görə iqtisadiyyat və biznes sahəsində "İlin bankı" nominasiyasına layiq görülüb.



Mərasimdə çıxış edən bankın İdarə Heyəti sədrinin birinci müavini Etibar Babaşlı bu nailiyyətin arxasında bank kollektivinin zəhmətinin durduğunu qeyd edib: "Son illərdə Azərbaycanda müşahidə olunan yüksək iqtisadi inkişaf, aparılan məqsədyönlü siyasət və ona müvafiq həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının potensial imkanlarından daha səmərəli istifadə nəticəsində əldə olunmuşdur. Müasir bazar iqtisadiyyatı şəraitində bankların iqtisadiyyatın ayrı-ayrı sahələrinin maliyyələşdirilməsi məhz bank sektorunun iqtisadiyyatın inkişafında rolunun əsas göstəricisidir. Banklar tərəfindən nağdsız hesablaşmaların təmin olunması istər ölkədaxili, istərsə də ölkədən kənar idxal-ixrac əməliyyatları zamanı hesablaşmaların asanlıqla həyata keçirilməsinə də şərait yaradır. İqtisadiyyatımızın inkişafında AtaBank-ın da rolunun olması bizi sevindirir.

AtaBank artıq 25 ildir ki, bank sektorunda fəaliyyət göstərir və bu illər ərzində kifayət qədər ilklərə imza atıb və yüksək nəticələr əldə edib. Hazırda 25 filial və 6 şöbəyə malik bankımız bu 25 ildə öz müştəriləri ilə birlikdə hərəkət edib, onlarla birlikdə inkişaf edib və böyüyüb. Bu gün bu mükafata layiq görülməyimiz hər bir vəzifədə və hər bir səviyyədə çalışan bütün əməkdaşlarımızın böyük uğurudur!"

Xatırladaq ki, "Uğur" mükafatı AtaBank-a sayca artıq üçüncü dəfə təqdim edilir. 2004-cü ildə bank "Etimad Bankı", 2010-cu ildə isə "Plastik kartlar sahəsində texnologiyaların tətbiqinə" nominasiyalarında bu mükafata layiq görülmüşdür.

Mükafatın təqdim edilməsi münasibətilə Etibar Babaşlı qeyd edib ki, AtaBank gələcəkdə də bu xəttə sadiq qalacaq və müştərilərinə daim yeni bank xidmətləri və məhsulları təqdim edəcək.

# Kapital bazarları vasitəsilə maliyyələşmənin yolları müzakirə olunub

Maliyyə Bazarlarına Nəzarət Palatasından (MBNP) AZƏRTAC-a bildiriblər ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) dəstəyi ilə Maliyyə Bazarlarına Nəzarət Palatası və Bakı Fond Birjası tərəfindən real sektoru təmsil edən korporativ təşkilatlarla "Azərbaycan kapital bazarları vasitəsilə maliyyələşmənin yolları və buna təsir edən amillər" mövzusunda forum keçirilib. Forumda "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"nin "2.1.1. listinqə çıxışı məhdudlaşdıran amillərin təhlili" və "2.1.4. Sahiblik düşüncə tərzinin dəyişdirilməsi" tədbirləri çərçivəsində şirkətlərlə kapital bazarları vasitəsilə maliyyələşmə, onların fond birjasında listinqini məhdudlaşdıran amillər, listinqin təşviq edilməsi üçün təklif olunan addımlar və sahiblik düşüncə tərzinin dəyişdirilməsi isitiqamətində ətraflı müzakirələr aparılıb. İnteraktivlik və diskussiyalarla zəngin olan tədbirdə, eyni zamanda, Bakı Fond Birjası tərəfindən həyata keçirilən və kapital bazarları vasitəsilə maliyyələşmək niyyətində olan şirkətlərə "Listinq Məsləhət Proqramı" haqqında ətraflı məlumat verilib, onların çoxsaylı sualları cavablandırılıb.

# Strateji Yol Xəritələri üzrə tədbirlərin icrası ilə bağlı müzakirələr aparılıb

İqtisadiyyat Nazirliyində (İN) Strateji Yol Xəritələri üzrə tədbirlərin icrası ilə bağlı müzakirələr aparılıb.

Qurumun mətbuat xidmətindən bildiriblər ki, nazirlikdə logistika və ticarətin, uyğun qiymətə mənzil təminatının və kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritələrinin tədbirlər planlarında nazirliyin əsas icraçı olduğu tədbirlərin icra vəziyyətinə dair məsul icraçı və əlaqələndirici struktur bölmələrin nümayəndələrinin iştirakı ilə növbəti iclas keçirilib. İclasda qeyd edilən Strateji Yol Xəritələri üzrə İqtisadiyyat Nazirliyinin əsas icraçı olduğu tədbirlərə dair əvvəlki müzakirələr zamanı verilmiş tapşırıq və tövsiyələrin icrası barədə aidiyyəti struktur bölmələrin rəhbərlərinin məlumatları dinlənilib. Həmçinin, hər bir tədbirin icrası müzakirə edilərək, icra zamanı qarşıya çıxa biləcək məsələlər və onların həlli üzrə fikir mübadiləsi aparılıb.

# Крупная азербайджанская компания выпускает манатные облигации



Азербайджанская компания METAK планирует выпустить облигации на два миллиона манатов, сообщает Бакинская фондовая биржа во вторник.
Как отмечается, годовая процентная ставка по облигациям составит 14 процентов, а период выплат - раз в квартал. Всего будет выпущено две тысячи облигаций по цене одна тысяча манатов каждая.
Выпуск облигаций осуществляется в рамках программы листинг-консультаций, к которой компания присоединилась в марте 2017 года.
Компания METAK действует в Азербайджане с 1997 года. В настоящее время компания предлагает местным и зарубежным потребителям свыше 250 наименований товаров, в том числе трубы и фитинги из полипропилена, армированные стекловолоконные трубы и металлопластиковые фитинги.

# Италии не пришлось бы объявлять чрезвычайное положение, если бы был TAP – министр

Если бы был Трансадриатический газопровод (TAP), Италии не пришлось бы объявлять чрезвычайное положение в стране, сказал министр экономического развития Италии Карло Календа.
Как сказал министр, Италия объявит чрезвычайное положение в связи с проблемами в энергопоставках после взрыва на одной из крупнейших газовых станций в Австрии, сообщает во вторник Reuters.
Инцидент в Австрии показал, что у Италии «серьезная проблема с поставками», сказал министр, подчеркнув необходимость ускорения реализации проекта TAP.
«Если бы у нас был TAP, нам не пришлось бы объявлять чрезвычайное положение», - добавил Календа.
Отметим, что на одной из крупнейших газовых станций в Австрии прогремел взрыв.
По данным телеканала ORF, один человек погиб, еще шестьдесят пострадали. В компании Gas Connect Austria (оператор газотранспортной системы) подтвердили информацию о двенадцати раненых и одном пропавшем.
Взрыв прогремел сегодня утром в коммуне Баумгартен. Станция принадлежит австрийской компании OMV. Как сообщили в полиции, причиной взрыва стала техническая неисправность, ведется следствие.
TAP стоимостью 4,5 миллиарда евро является частью проекта "Южный газовый коридор" и будет соединен с другим газопроводом - TANAP - на турецко-греческой границе: он будет проложен по территории Греции, Албании, по дну Адриатического моря, а затем направлен на юг Италии.
Первоначальная мощность TAP составит 10 миллиардов кубических метров в год с возможностью ее удвоения.
Ожидается, что строительство TANAP будет завершено в 2018 году, а TAP - в 2020 году с тем, чтобы в этот же год первый азербайджанский газ попал в Европу.
Протяженность трубопровода составляет 878 километров, из которых 550 километров будет проложено по территории Греции, 215 километров - Албании, 105 километров - по дну Адриатического моря и 8 километров - по территории Италии.



Акционерами TAP являются: BP - 20 процентов, SOCAR (Госнефтекомпания Азербайджана) - 20 процентов, Snam - 20 процентов, Fluxys - 19 процентов, Enagás - 16 процентов, Axpo - пять процентов.

# Стенд Azercell назван «самым креативным стендом» выставки "Bakutel 2017"




Ведущий оператор сотовой связи Азербайджана Azercell Telecom добился очередного успеха. Стенд компании на выставке "Bakutel 2017" был назван «самым креативным стендом». Как и в предыдущие годы, и в этом году на выставке "Bakutel-2017" компания Azercell продемонстрировала самые инновационные проекты в области мобильной связи и телекоммуникаций. На своем традиционном стенде, который стал самым посещаемым, Azercell представил посетителям инновационные решения, полезные как для бизнеса, так и для отдыха. Зона развлечений, являющаяся самой активной и веселой на стенде Azercell на протяжении четырех дней выставки «Bakutel 2017», была полна приятных сюрпризов, различных викторин и конкурсов с подарками.
На стенде были представлены варианты решений ИТ нового поколения, различные инновационные мобильные услуги технологий 4G и 5G, современные мобильные устройства. Также отметим то, что в этом году Azercell Telekom является не только одним из основных участников "Bakutel", но и Генеральным спонсором.
Отметим, что Azercell неоднократно награждался как на местных, так и на международных выставках.Стенд Azercell неоднократно становился первым среди самых посещаемых стендов на телекоммуникационных и образовательных выставках.

# В МИРЕ

## Рекордная инфляция в Великобритании

Инфляция в Великобритании в ноябре достигла рекорда почти за шесть лет, составив 3,1%. Рост зарплаты отстаёт при этом почти на процент. Скачок инфляции оказался резким и немного неожиданным, передаёт Евроньюс. В первую очередь на фоне «брексита» дорожают импортные товары и услуги.
Эксперты констатируют, что темпы роста британской экономики заметно отстают от восстанавливающейся еврозоны. При этом целевой уровень инфляции в Королевстве составляет всего 2%, и теперь Банку Англии придётся предоставить план, каким образом сдержать рост цен.



# При поддержке Azercell были проведены III Детские паралимпийские спортивные игры



При организационной поддержке Azercell Telekom и Национального паралимпийского комитета Азербайджанской Республики, в нашей стране, прошли III Детские паралимпийские спортивные игры.
В соревнованиях, состоявшихся 11 декабря, в Сумгаитском Республиканском паралимпийском спортивном комплексе, 111 детей с ограниченными физическими возможностями, из 8 регионов, состязались за 19 медалей, в 7 видах спорта.
В этот раз наши спортсмены соревновались в таких видах спорта, как бочча, дзюдо, плавание, голбол, пинг-понг, паратаэквондо и танцы на инвалидных колясках. В церемонии открытия Игр принимали участие президент Azercell Telekom Вахид Мурсалиев, президент Национального паралимпийского комитета Ильгар Рагимов, глава представительства Детского фонда ООН (UNICEF) в Азербайджане Эдвард Карвардин, международный эксперт UNICEF Колин Хиггис, представители Министерства молодёжи и спорта, Олимпийского комитета и неправительственных организаций. Церемонии открытия и закрытия III Детских паралимпийских спортивных игр также сопровождались музыкально-развлекательными программами.
Победители соревнований были награждены кубками, медалями и дипломами, а также удостоились специальных подарков от Azercell Telecom и Национального паралимпийского комитета.

## Нефтяная корзина ОПЕК 11 декабря подорожала

Цена нефтяной корзины ОПЕК 11 декабря составила 61,51 доллара за баррель, что на 0,91 доллара больше показателя пятницы, сообщили Trend во вторник в картеле.
Стоимость корзины ОПЕК определяется на основании цен на Saharan Blend (Алжир), Girassol (Ангола), Oriente (Эквадор), Zafiro (Экваториальная Гвинея), Rabi Light (Габон), Iran Heavy (Иран), Basra Light (Ирак), Kuwait Export (Кувейт), Es Sider (Ливия), Bonny Light (Нигерия), Qatar Marine (Катар), Arab Light (Саудовская Аравия), Murban (ОАЭ) и Merey (Венесуэла).
Нефть во вторник вечером дешевеет в рамках коррекции после сильного роста из-за закрытия трубопровода Forties.
По состоянию на 18:43 вторника, стоимость февральских фьючерсов на североморскую нефтяную смесь марки Brent снижалась на 0,29 процента - до 64,5 доллара за баррель. Цена январских фьючерсов на нефть марки WTI сокращалась на 0,4 процента — до 57,76 доллара за баррель.

# Компания Bakcell впервые в Азербайджане демонстрирует готовность к 5G и рекордную скорость до 1 гигабит в секунду с помощью технологии 4.5G Pro




Первый Оператор Мобильной Связи и Ведущий Провайдер Мобильного Интернета в Азербайджане – компания Bakcell демонстрирует готовность к 5G и технологию 4.5G Pro на своем стенде на выставке BakuTel-2017.
Будучи известным лидером в сфере инноваций, в этом году компания Bakcell в очередной раз удивит посетителей выставки BakuTel, и подарит им незабываемые впечатления, демонстрируя ультрасовременные технологии.
Посетив уголок «Путь к стандарту 5G» стенда Bakcell, организованного совместно с Nokia, гости выставки смогут ознакомиться с новейшей технологией 4.5G Pro а также понаблюдать за скоростью в 10 раз превышающую скорость привычной сети LTE.
Так, в рамках уникальной для Азербайджана презентации, посвященной готовности к 5G, Bakcell и Nokia продемонстрируют посетителям стенда невероятные возможности технологии 4.5G Pro и фантастическую скорость передачи данных, достигающую 1 гигабит в секунду. Также, гости стенда смогут понаблюдать за демонстрацией Robot Automation Latency, рассказывающей о преимуществах сокращения задержки передачи сигнала.
«В связи со стремительным ростом спроса на услуги сверхскоростного мобильного интернета, а также растущим темпом использования ресурсоемких приложений, компания Bakcell продолжает инвестировать значительные средства в свою сеть, и работает над применением самых последних технологий, доступных на мировом рынке. В недалеком будущем, пользователи будут нуждаться в сетях с высокой пропускной способностью, способных передавать большие объемы данных. Поэтому, чтобы сохранить свое лидерство в области инноваций, мы хотим убедиться, что наша сеть будет готова поддерживать 4.5G Pro и даже 5G, как только на рынке появится спрос на такие технологии» отметил главный исполнительный директор компании Bakcell Николаи Беккерс.
Презентация, посвященная готовности к стандарту 5G, наглядно демонстрирует всю важность сокращения задержки передачи сигналов, для обеспечения скоростной, эффективной и интеллектуальной связи, а также для глобальной автоматизации в будущем.

# Стенд компании Bakcell был признан самым оригинальным стендом выставки BakuTel-2017

Первый Оператор Мобильной Связи и Ведущий Провайдер Мобильного Интернета в Азербайджане – компания Bakcell получила награду за активное участие в 23-й Международной Выставке «Телекоммуникации и Информационные Технологии» BakuTel-2017, по итогам которой, стенд Bakcell был назван «самым оригинальным стендом» выставки.
Стенд компании Bakcell на выставке BakuTel-2017, прошедшей в период с 5 по 8 декабря 2017 года, привлек к себе большое внимание посетителей и стал одним из самых популярных и посещаемых стендов этого престижного международного события. Гости стенда получили уникальную возможность увидеть первую в Азербайджане демонстрацию готовности к стандарту 5G, скорость передачи данных, достигающую 1 Гб в секунду, благодаря технологии 4.5G Pro, а также увлекательную демонстрацию «Robot Automation Latency», с участием роботов. Более того, гости выставки смогли ознакомиться с самыми последними продуктами и услугами компании Bakcell, такими как Bakcell TaxFree app, Klass Postpaid, MyHour и Free Instagram.
Наряду с вышеперечисленным, на стенде были представлены 3 проекта, полностью созданных молодыми азербайджанскими разработчиками в рамках программы Bakcell AppLab, а также веселые конкурсы и много других развлечений.
В результате, благодаря уникальному и инновационному содержанию, стенд Bakcell был назван самым оригинальным стендом выставки, и был награжден официальным сертификатом от организатора BakuTel-2017, компании Caspian Event Organizers (CEO). Все гости и участники выставки BakuEel-2017 посетившие стенд компании Bakcell получили незабываемые впечатления от использования ультрасовременных технологий в веселой и увлекательной атмосфере.

# Professor Buludxan Xəlilovun biblioqrafiyası: alimin fəaliyyətinə biblioqrafik yanaşma




Elmi-biblioqrafik fəaliyyət informasiya ilə işləyən müəssisələrin prioritet istiqamətlərindən biridir. Milli, elmi köməkçi və tövsiyə biblioqrafiyasının inkişafına istiqamətlənmiş bu fəaliyyətin tərəflərindən biri tədqiqatçıların biblioqrafik araşdırma işini yaxşılaşdırmaq naminə informasiya xarakterli nəşrlərin, biblioqrafik göstəricilərin tərtibidir. Biblioqrafik informasiya fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edən biblioqrafik vəsaitlərin tərtibi və nəşrinin həyata keçirilməsi bu gün çox fəal sahədir. Bu gün sənədlərin biblioqrafiyalaşdırılması, ölkənin biblioqrafik vəsaitlər sisteminin formalaşması sahəsində geniş, əhatəli və səmərəli fəaliyyət nəzərə çarpır. Nəşr olunan müxtəlif növlü biblioqrafiyaların tərtibi ilə əsasən biblioqraflar, həmçinin müxtəlif alimlər məşğul olurlar. Milli biblioqrafik vəsaitlər sistemində ölkənin müxtəlif tanınmış ictimai və siyasi xadimlərinə, elm və mədəniyyət nümayəndələrinə həsr edilmiş elmi-köməkçi xarakterli şəxsi biblioqrafik vəsaitlər xüsusi yer tutur. Bu vəsaitlərin nəşrində məqsəd informasiya tələbatçılarını fəaliyyəti araşdırılan şəxslə bağlı ölkənin müxtəlif sənəd fondlarında mühafizə edilən hər növ materiallarla tanış etməkdir. Gərgin əməyin və hərtərəfli axtarışların nəticəsi kimi ərsəyə gələn bu vəsaitlər milli biblioqrafiyanın formalaşması və inkişafında əvəzsiz rol oynayır.

Dilçilər, ədəbiyyatşünaslar, filoloqlar, elm xadimləri, biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş növbəti biblioqrafik tərtib işi Azərbaycan Nobel İnformasiya Mərkəzi tərəfindən "Adiloğlu" nəşriyyatında çap olunmuş "Professor Buludxan Əziz oğlu Xəlilovun biblioqrafiyası" kitabıdır. Tarix elmləri doktoru Bəybala Ələsgərovun tərtibçi-müəllifliyi ilə bu günlərdə işıq üzü görmüş bu vəsait ADPU-nun Filologiya fakültəsinin dekanı, filologiya üzrə elmlər doktoru, professor Buludxan Əziz oğlu Xəlilov haqqında hazırlanmışdır və şəxsi biblioqrafik göstəricilər sisteminə bu günlərdə daxil olmuşdur. Kitab dəyərli ziyalımız haqqında hazırlanmış ilk biblioqrafik işdir. Azərbaycan biblioqrafiya elminə yeni bir töhfə olan bu vəsaitin elmi redaktoru AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı Aygün Hacıyeva, ixtisas redaktoru filologiya üzrə fəlsəfə doktoru Bilal Alarlı, bədii və texniki redaktoru Aybəniz Sultanovadır. Bu tərtib işi 789 mənbənin biblioqrafik məlumatlarını özündə əks etdirməklə, tanınmış alimin yaradıcılığı ilə maraqlanan tədqiqatçılar üçün mühüm məxəz rolunu oynayır.

Göstərici "Tərtibçi-müəllifdən", "Həyatı, elmi-pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri", "Elm, mədəniyyət xadimləri və dostları B. Xəlilov haqqında", "Professor Buludxan Xəlilovun kitablarının nəşri", "B.Xəlilovun müxtəlif illərdə çapdan çıxmış kitablarının biblioqrafik təsviri, mündəricatı və annotasiyası", "Tərcümələri", "Tərtib etdiyi kitablar", "Elmi redaktoru, redaktoru, ön söz, rəy verdiyi, rəyçi olduğu kitablar və proqramlar", "Rəhbəri, rəy verdiyi və opponenti olduğu dissertasiyalar", "Kitablarda, məcmuələrdə və toplularda çap olunmuş materiallar" və s. bölmələrdən ibarətdir. Akademik İsa Həbibbəylinin "Çoxaspektli dilçilik tədqiqatları və professionallıq", akademik Ziyad Səmədzadənin "Buludxan Xəlilov-50", akademik Teymur Kərimlinin "Azərbaycan dilçilik məktəbinin görkəmli davamçısı", akademik Muxtar İmanovun "50 yaşın zirvəsində görünənlər", akademik Nizami Cəfərovun "Alim adına hörmət gətirən adam" adlı məqalələrinin də yer aldığı, ziyalının elmi yaradıcılığını hərtərəfli özündə əks etdirən bu vəsaitin hazırlanması onun fəaliyyətini öyrənənlər üçün xüsusi hədiyyədir.

Kitabda B.Xəlilovun müəllifi olduğu 39 kitab haqqında məlumatlar və annotasiyalar, rəhbəri, rəy verdiyi və opponenti olduğu 16 dissertasiya, kitablarda, məcmuələrdə və toplularda çap olunmuş 99 məqalə, dövri mətbuatda çap olunmuş 287 məqalənin təsviri öz əksini tapmışdır.

Biblioqrafik vəsaitlərin əsas xüsusiyyətlərindən biri müəyyən əlamətlər üzrə qruplaşdırılmış materialların axtarışını operativləşdirmək məqsədilə müxtəlif parametrlər əsasında yardımçı aparatın tərtibidir. Biblioqrafik vəsaitin mühüm və fərqli cəhətlərindən biri də məhz dinamik elmi fəaliyyəti ilə seçilən alimin yaradıcılığı haqqında Azərbaycan elm və mədəniyyətinin çoxsaylı nümayəndələrinə məxsus məqalələrin, B.Xəlilovun hər bir kitabı haqda geniş annotasiyanın, indiyə kimi çox az sayda biblioqrafik göstəricidə olmuş nəşriyyatların, dövri mətbuatın və müsahibə aparan şəxslərin əlifba göstəricilərinin tərtibidir.

*Aygün Hacıyeva,*
*Azərbaycan Milli Kitabxanası Kitabxanaşünaslıq elmi-tədqiqat şöbəsinin müdiri*

*Bəybala Ələsgərov,*
*Beynəlxalq Nobel İnformasiya Mərkəzinin vitse-prezidenti, tarix üzrə elmlər doktoru*

# Azərbaycan gəncliyi ölkəmizin inkişafında aparıcı qüvvədir



Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası təsdiq edilmişdir. Həmin sənəddə yüksək rəqabətqabiliyyətli iqtisadiyyat, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı, mədəni irsin qorunması, qanunvericiliyin təkmilləşdirilməsi, ətraf mühitin mühafizəsi və ekologiya məsələləri ilə yanaşı, insan kapitalının inkişafı və sosial müdafiə sisteminin qurulması, o cümlədən gənclərin potensialının və idmanın inkişafı əsas prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilmişdir. Ölkə prezidenti cənab İlham Əliyevin "qara qızılı insan kapitalına çevirməliyik" fikri bu gün uğurla reallaşdırılır .Belə ki, dünyanın ən öndə gedən universitetlərində dövlət hesabına təhsil alan Azərbaycan gənclərinin sayı ildən-ilə artır. Bu da, şübhəsiz ki, elmin, təhsilin inkişafına diqqətin nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün prezident mükafatlarının təsis edilməsi gənclərin hərtərəfli inkişafını stimullaşdırır.

Son illər ölkəmizdə aparılan genişmiqyaslı islahatların daha da dərinləşdirilməsi sosial-iqtisadi inkişafın yüksəlməsinə gətirib çıxarmışdır. Ölkədə investisiya mühitinin yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişafı istiqamətlərində çox mühüm addımlar atılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" təsdiq edilmişdir. Bu strateji yol xəritələrindən 2-si birbaşa Azərbaycan gəncliyi ilə bağlıdır. Birincisi, Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair strateji yol xəritəsi, ikincisi isə peşə təhsili və təliminin inkişafına dair strateji yol xəritəsidir. Ümumiyyətlə, strateji yol xəritələrinin həyata keçirilməsinin Azərbaycanın davamlı və dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsində böyük rolu olacaqdır.

2017-ci il sentyabrın 14-də Bakıda Azəri-Çıraq-Günəşli yataqlarının dərin hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında yeni saziş imzalandı. Bu tarixi saziş nəticəsində ölkəmiz 3,6 milyard dollar bonus əldə edəcəkdir. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında (9.10.2017) qeyd olunmuşdur ki, qeyri-neft sektoru 9 ayda 2,5%, o cümlədən sənaye 3,1%, kənd təsərrüfatı isə 2,8% artmışdır. Artıq ÜDM-də qeyri-neft sektorunun payı 60%-dən 63%-ə qalxıb və xarici ticarətdə müsbət saldo əldə edilmişdir. Həmçinin, respublikamızın strateji valyuta ehtiyatları 4,5 milyard dollar artaraq 42 milyard dollar səviyyəsinə çatmışdır, 226 min yeni iş yeri açılmışdır. Demək olar ki, iqtisadiyyatın bütün sahələrində dinamik inkişaf təmin olunmuşdur.

Beynəlxalq reytinq agentliklərinin qiymətləndirmələrində Azərbaycanın mövqeyi ildən-ilə yaxşılaşır. Dünya İqtisadi Forumunun qlobal rəqabətqabiliyyətlilik üzrə (2017-ci il) son hesabatında ölkəmiz qlobal rəqabətqabiliyyətlilik indeksinə görə 2 pillə irəliləyərək 35-ci yerə qalxmışdır. Eyni zamanda, Dünya Bankının "Doing business" hesabatında da Azərbaycan 8 pillə irəliləyərək 65-ci yerdən 57-ci yerə yüksəlmişdir. Azərbaycan hər iki hesabat üzrə hətta bəzi böyük 20-lik ölkələrini də geridə qoymuşdur.

Azərbaycanın əlverişli coğrafi-iqtisadi mövqeyi, onun Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin mərkəzində yerləşməsi iqtisadi artımı şərtləndirən amillərdən biridir. Qədim İpək yolunun bərpası olan Bakı-Tbilisi-Qars dəmir yolunun açılması ölkəmizə külli miqdarda gəlir gətirəcəkdir və dünyada beynəlxalq nüfuzumuzu möhkəmləndirəcəkdir.

Əlbəttə, bütün bu və ya digər uğurların əldə edilməsində Azərbaycan gəncliyi və onun önündə dayanan ölkə prezidenti cənab İlham Əliyevin böyük rolu vardır. Məhz ölkə rəhbərinin 2017-ci il 15 sentyabr tarixli sərəncamı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edilmişdir.

Dövlət proqramının qəbul edilməsində məqsəd respublikamızda gənclər siyasətinin səmərəliliyini artırmaq, bütün sahələrdə gənclərin fəal iştirakını təmin etmək, onların kreativ və novatorluq potensialını aşkarlamaq, təhsil və məşğulluq məsələlərinə önəm verməkdir. Dövlət Proqramında bir sıra vəzifələr, o cümlədən gənclərin hərtərəfli inkişafı üçün şəraitin yaradılması, onlarda vətəndaşlıq və vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, gənclər arasında sülhsevərlik, humanizm dəyərlərinin təbliğ edilməsi, sağlamlıqlarının qorunması və möhkəmləndirilməsi, sağlam həyat tərzinin təbliğ edilməsi, gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviqi, onların ekologiya və ətraf mühitlə bağlı biliklərinin artırılması və s. vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur. Demək olar ki, bu və ya digər vəzifələrin həyata keçirilməsi ölkəmizin hərtərəfli inkişafında Azərbaycan gəncliyinin rolunun bundan sonra daha da artmasına gətirib çıxaracaqdır.

**Nazim Cahangirov,**
**Bakı Dövlət Sosial-İqtisadi Kollecinin müəllimi**

# Rektor Maksimtsev: "UNEC-in islahat təcrübəsi uğur modelidir"

UNEC-in rektoru, professor Ədalət Muradov Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən "Avrasiya iqtisadi perspektivi" V Beynəlxalq Avrasiya İqtisadi Forumunda iştirak edib.

Forum çərçivəsində "Avrasiya humanitar əməkdaşlığı: təhsil, elm və mədəniyyət" mövzusunda plenar iclas təşkil edilib. Tədbirdə MDB məkanı üzrə elmi istinad indeksi institutunun yaradılması, universitetlərin təhsil və elm sahəsində qarşılıqlı əlaqələrinin dərinləşməsi istiqamətində fikir mübadiləsi aparılıb.

Avrasiya Universitetlər Assosiasiyasının icra komitəsinin sədri, professor Aleksandr Vladimiroviç Sidoroviç UNEC-in fəaliyyətinə diqqət çəkərək, bu ali təhsil ocağının uğurlarını rəğbətlə izlədiyini bildirib. UNEC-in regionda və dünyada nüfuzunun sürətlə artdığına diqqət çəkən professor universitetin inkişaf strategiyasının doğru müəyyən edildiyini və bu təcrübənin öyrənilməsinin vacibliyini vurğulayıb. Tədbirdə iştirak edən Rusiyanın tanınmış iqtisadçı alimləri UNEC-in Rus İqtisad Məktəbinin fəaliyyətini yüksək qiymətləndirərək, pedaqoji fəaliyyətlərini burada davam etdirməkdən məmnun olacaqlarını bildiriblər.

Rektor Ə.Muradov forum çərçivəsində Sankt-Peterburq Dövlət İqtisad Universitetində də olub. Universitetin rektoru, professor İqor Anatoleviç Maksimtsev nailiyyətlərini yaxından izlədiyi UNEC-in islahat təcrübəsini uğur modeli adlandırıb. O, UNEC-də tətbiq edilən yenilikləri ali təhsil səviyyəsində mütərəqqi addım hesab etdiyini bildirib. Sankt-Peterburq Dövlət İqtisad Universitetinin kitabxanası ilə tanış olan Ə.Muradov yaxın zamanda Azərbaycanda ilk dəfə olaraq UNEC-də 7 gün 24 saat fəaliyyət göstərəcək müasir kitabxananın tələbələrin istifadəsinə veriləcəyini diqqətə çatdırıb. Professor İ.A.Maksimtsev yeni yaradılan kitabxananın fəaliyyəti ilə tanış olmaq, ümumiyyətlə, UNEC təcrübəsini öyrənmək məqsədilə Bakıya səfər etməyi planlaşdırdığını bildirib. Görüşdə ikili diplom proqramı barədə razılaşma əldə edilib.



UNEC rektorunun növbəti görüşü isə "Müasir iqtisadiyyatın problemləri" Avrasiya beynəlxalq elmi-analitik jurnalının baş redaktoru N.F.Qazizullin ilə olub. Baş redaktor UNEC brendinin beynəlxalq aləmdə qısa zamanda tanındığına diqqət çəkərək, bu təcrübəni dünyanın elm və təhsil ictimaiyyəti ilə paylaşmağın zərurətini vurğulayıb. O, "Müasir iqtisadiyyatın problemləri" jurnalının xüsusi buraxılışının UNEC-ə həsr ediləcəyini bildirib.

Görüşlərdə UNEC-in elmi tədqiqat universitetinə çevrilməsi istiqamətində tətbiq edilən yeniliklər xüsusi vurğulanıb. Ali təhsil ocağının ictimaiyyətə açıq olması, ölkədə və regionda baş verən iqtisadi proseslərə öz proqnozları ilə çevik reaksiya verən UNEC ekspertlərinin fəaliyyəti yüksək qiymətləndirilib.

# "UNEC-in inkişaf strategiyasının əsasını Ulu Öndərin tövsiyələri təşkil edir"

UNEC-də Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar tədbir keçirilib.

Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının əsasını qoyduğunu diqqətə çatdıran UNEC-in rektoru, professor Ədalət Muradov ölkəmizin dünyada tanıdılması və beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsində ümummilli liderin əvəzsiz xidmətlərindən danışıb. Heydər Əliyev irsinin öyrənilməsinin vacibliyini bildirən rektor dahi şəxsiyyətin məğlubedilməzlik, əbədi qalib nümunəsi olduğunu vurğulayıb. Rektor ulu öndərin kadr hazırlığı siyasətinə xüsusi önəm verdiyinə diqqət çəkərək, onun bu istiqamətdəki tövsiyələrinin UNEC-in inkişaf strategiyasının əsasını təşkil etdiyini bildirib.



Millət vəkili Musa Quliyev ulu öndərin keçdiyi həyat yoluna, xalqımız qarşısında xidmətlərinə nəzər saldıqda, Heydər Əliyevin təkcə Azərbaycanın deyil, həmçinin dünyanın nəhəng siyasətçilərindən biri olduğunu qeyd edib. O, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə apardığı uğurlu daxili və xarici siyasətdən bəhs edərək, dahi şəxsiyyətin müstəqillik, demokratiya, ədalətlilik, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlərin əsasını qoyduğunu bildirib. M.Quliyev ulu öndərin rəhbərliyi ilə ölkəmizin qazandığı bütün uğurların Prezident İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirildiyini və daha da zənginləşdirildiyini diqqətə çatdırıb.

YAP Səbail rayon UNEC ilk ərazi təşkilatının sədri, prorektor Mikayıl Zeynalov ulu öndərin ordu quruculuğundakı rolundan danışıb. Görkəmli siyasi xadim Heydər Əliyevin həm də qüdrətli Azərbaycan ordusunun yaradıcısı olduğuna diqqət çəkən M.Zeynalov Azərbaycan Silahlı Qüvvələrinin bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşdığını və gündən-günə daha da möhkəmləndiyini qeyd edib.

UNEC-in kaferda müdiri, professor Əli Əlirzayev Azərbaycan dövlətinin yaranmasında, inkişafında və dünyada tanınmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolundan söz açıb, onun rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramlarından bəhs edib.

# UNEC-də doktorantura təhsilində yenilik: Tədqiqatyönümlü dərslər təşkil olunacaq

UNEC-də doktorantura pilləsi üzrə tədris proqramı və imtahanlarının təşkili qaydaları hazırlanıb. Qaydalar doktorantura təhsilinin məzmunu, elmi-tədqiqat işləri, tədris yükünün həcmi, tədris mərhələlərinin müddəti, tədris növləri və ayrı-ayrı fənlərin həcmini əhatə edir. Yeni qaydalara görə, doktorant və dissertantlara ilk 1 il müddətində beynəlxalq təcrübəyə uyğun tədqiqatyönümlü dərslər təşkil olunacaq. Yeni qaydalarda doktorantların mobilliyini təmin edən göstəricilər və təhsil proqramlarının dövlətlərarası müqayisəsi və tanınması prosedurları da açıqlanıb. Bu qaydalarda həm doktoranturaya qəbul imtahanlarının, həm də doktorluq imtahanlarının təşkili və keçirilməsi üzrə müasir tələblər qeyd edilib. Tədris ili yaz və payız semestrindən ibarət olacaq.



# KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edildi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 2018-ci ilin I yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elan edir.

"Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"na müvafiq olaraq Fondun Müşahidə Şurasının rəyi əsasında 19 istiqamət üzrə KİV layihələrinin maliyyələşdirilməsi qərara alınmışdır.

Müsabiqə elan olunan günədək son 3 ildə müntəzəm nəşr olunan, dövriliyi həftədə 1 dəfədən, səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 2500 nüsxədən az olmayan, hər buraxılışından ən azı 1000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan qəzetlər iştirak edə bilərlər.

Maliyyə yardımının şərtləri:

- layihə təklifi müsabiqə istiqamətlərindən birinə uyğun olmalıdır;
- ərizə forması, layihə və ona əlavə olunmuş sənədlər müsabiqə qaydalarına və tələblərinə cavab verməlidir.

Hər layihə üçün maksimum məbləğ 60 000 (altmış min) manat müəyyən edilmişdir.

Hər KİV bir layihə təqdim edə bilər.

Sənədlər 2017-ci il dekabr ayının 8-dən 25-dək, rəsmi iş günləri saat 10:00-dan 16:00-dək Fondun ofisində qəbul olunur.

Ərizəyə layihə təklifi və fəaliyyət planı, ərizə forması (layihənin istiqaməti göstərilməklə), KİV-in müvafiq dövlət orqanında uçota götürülməsini təsdiq edən sənəd, VÖEN, KİV-in borcunun olmadığını təsdiq edən sənəd, redaksiya əməkdaşlarının sayı, layihənin icrasına cəlb ediləcək əsas əməkdaşların, məsul şəxslərin tərcümeyi-halı (CV) və işinin təsviri, KİV-in son 6 ayda satış və abunə yayımı haqda yayım orqanından sənəd əlavə olunmalıdır.

Müsabiqə ilə bağlı əlavə məlumatı www.kivdf.gov.az saytından və Fondun ofisindən əldə edə bilərsiniz.

# Fondun Müşahidə Şurasının növbəti iclası keçirilib



Dekabrın 7-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri Həsən Həsənov iclası giriş sözü ilə açaraq gündəlik barədə məlumat verib:

1. Fondun 2018-ci ilin I yarısı üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqi;
2. Cari məsələlər.

Müşahidə Şurasının sədri Həsən Həsənov gündəlikdəki məsələlər barədə məlumat vermək üçün sözü Fondun icraçı direktoru Vüqar Səfərliyə verib.

İcraçı direktor 2018-ci ilin birinci yarısı üzrə KİV-ə maliyyə yardımı müsabiqəsinin "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına Dövlət Dəstəyi Konsepsiyası" əsasında 19 istiqamət üzrə keçiriləcəyini bildirib. V.Səfərli dekabrın 8-dən 25-dən keçiriləcək müsabiqə elanının şərtlərində nəzərdə tutulan dəyişikliklər barədə Müşahidə Şurası üzvlərinə məlumat verib. İcraçı direktor bildirib ki, təklif olunan dəyişikliklərə əsasən, müsabiqədə iştirak edəcək qəzet redaksiyaları əməkdaşlarının sayı barədə məlumat verməli, habelə sənəd təqdim edəcək gündəlik və həftəlik qəzetlərin səhifələrinin sayı 16-dan (A3 formatda) az olmamalıdır.

Müşahidə Şurasının üzvləri müzakirə olunan məsələ ilə bağlı rəy və təkliflərini bildiriblər. Şuranın sədri Həsən Həsənov, üzvlərdən Camaləddin Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov, Rasim Həsənov və Ayaz Mirzəyev çıxış edərək, Fondun maliyyə yardımı müsabiqələrinin çap mediasının maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini qeyd ediblər. Daha sonra müsabiqənin elanı təklif olunan əlavə və dəyikliklərlə səsə qoyularaq təsdiq edilib.

Cari məsələlərin müzakirəsi zamanı icraçı direktor Vüqar Səfərli Fondun perspektiv fəaliyyət istiqamətləri barədə məlumat verib.

# "Excelsior Hotel & Spa Baku" otelində Milad bayramına həsr edilmiş gecə keçiriləcək




25 dekabr 2017-ci il tarixində "Excelsior Hotel & Spa Baku" otelinin "Belveder" restoranında Milad gecəsi keçiriləcək. Restoranın rahat nəfis mühiti, milad yolkası, şamlar, canlı romantik musiqi Milad gününün təkrarsız, səmimi qarşılanması atmosferini yaradacaq. Bir nəfər üçün biletin qiyməti 59 manat təşkil edir. Biletləri əldə etmək və yer sifariş etmək üçün "Excelsior Hotel & Spa Baku" otelinə 012 496 80 00 nömrəli telefona və ya (050) 235 35 14 mobil telefonuna zəng vurun.

"AtaHolding" Şirkətlər Qrupunun Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilara Zamanova bu maraqlı aksiya ilə bağlı bildirdi ki, tədbiri daha da təmtəraqlı və yaddaqalan edən məqamlardan biri oteldə yaşayan xarici qonaqların bu tədbirdə özlərini öz evlərindəki kimi hiss etməsi və tədbirə qatılmalarıdır. Tədbirin orijinal, əyləncəli və zövqlü keçirilməsi üçün bütün təşkilati işlər mükəmməl şəkildə yerinə yetiriləcək.

# REKLAMIN VİZUAL TƏRTİBATI ÜÇÜN PSİXOLOJİ ÜSULLAR

**(əvvəli ötən sayımızda)**

**REKLAM KONTEKSTİ**

**Yeni bazarlarda rasional müraciətlərdən istifadə olunması.** Əgər sizin məhsulunuz yeni və innovasiyalıdırsa, reklam elanlarında rasional müraciətlərdən istifadə olunması tövsiyə olunur.

İstehlakçılar əmtəə haqqında kifayət qədər informasiyaya malik olmadıqlarında, onlar reklam elanlarının daha çox düşünülməsinə motivasiya olurlar. Reklam inandırıcı dəlillər təqdim etməlidir ki, bu da artıq riskləri azalda bilər. Əgər istehlakçılar sizin məhsulunuzla tanış deyillərsə, onlar elanı daha ətraflı oxuyacaqlar, buna görə də emosiyalı çağırışlar çox da səmərəli olmayacaqdır. Onlara alqı üçün rasional səbəb lazımdır.




**Artıq mənimsənilmiş bazarlarda emosiyalı müraciətlərdən istifadə olunması.** Mənimsənilmiş bazarlarda əks vəziyyət baş verir. Əgər istehlakçılar sizin məhsulla və ya brendlə tanışdırsa, onlar reklama az diqqət yetirirlər. Ona görə də onlar üçün emosiyalı müraciətlər səmərəli ola bilər.

Mənimsənilmiş bazarlarda istehlakçılar və müştərilər, çox güman ki, artıq sizin məhsulla qarşılıqlı fəaliyyət təcrübəsinə malikdirlər. Bu, reklam elanlarının kütləvi emalına onların motivasiya olunmasını azaldır.

**Spontan (öz-özünə əmələ gələn) fəaliyyəti stimullaşdırmaq üçün inkardan istifadə edilməsi.** Mət-




ndə inkar hissəcəyi sizin məhsulunuzun həll edəcəyi problemi ifadə edir. Bioloji cəhətdən insanlar elə qurulmuşdur ki, ağrıdan xilas olmaq istəyirlər. Buna görə də biz mənfi qıcıqlandırıcıları nəzərə almaq meylindəyik.

Əgər insanlar mənfi tərtib olunmuş elanların emalı üçün daha çox resurs sərf edirlərsə, onda belə xəbərlər impulsiv, yəni qeyri-iradi alqılara gətirib çıxaracaqdır. Sizin reklamınızın məqsədi dərhal reaksiya verməkdirsə, inkardan istifadə edilməsini nəzərdən keçirin. Bu halda siz asanlıqla diqqəti cəlb edəcəksiniz və böyük ehtimalla dərhal davranış reaksiyası doğuracaqsınız.




**Uzun müddət yadda saxlamaq üçün müsbət tərtibatdan istifadə olunması.** Sizin məhsulunuzun təqdim etdiyi üstünlüklərin təsvir edilməsi zamanı elanların müsbət tərtibatından istifadə olunur. Alimlərin apardıqları tədqiqatlar göstərdi ki, müsbət tərtib olunmuş elanlar uzun müddət yaddaşa daha güclü təsir bağışlayır.

Hətta reklam elanları inkarla informasiyanın emalı üçün daha çox resurs tələb etdiyi zaman müsbət müddəalar daha yaddaqalan olur. Biz fərz edirik ki, bu ziddiyyət reklama cəlb edilmiş diqqətin miqdarı ilə yox, iştirakçıların hiss etdiyi sövqetmə, həvəs səviyyəsi ilə izah olunur.

İştirakçılar müsbət tərtib edilmiş elanlar nümayiş etdirilən zaman yaddaşın möhkəmlənməsini gücləndirən yüksək sövqetmə, həvəs səviyyəsini hiss edirdilər.




Öz elanınızın yaradılmasının ən yaxşı metodikasını dəqiq müəyyən etmək üçün əvvəlki taktikalara diaqram birləşdirmək olar. Reklam yaradılan zaman hər dəfə uyğun tərtibatı seçməkdən ötrü cədvələ müraciət edin (sizin bazarınızdan və reklam vəzifələrindən asılı olaraq).

| Hansı reklam tərtibatı yaxşıdır? | | Məqsəd: Fəaliyyətə sövq etmək | Məqsəd: Yadda saxlamaq |
|---|---|---|---|
| Bazar | Təzə | Mənfi tərtib olunmuş dəlillər | Müsbət tərtib olunmuş dəlillər |
| Bazar | Mənimsənilmiş | Mənfi tərtib olunmuş emosiyalar | Müsbət tərtib olunmuş emosiyalar |

**(davamı var)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**




Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin eksperti Mansur Mədətov Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş mühasibi Sarı Yusubova qardaşı

**NƏSİB MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500